Çün Hatəmi-Tan[1] vəfat elədi, onu dəfn elədilər.
Qəzara-Hatəmin qəbri bir məhəldə vaqe olmuşdu ki, seldən qəbrə xələl yetişirdi. Hatəmin oğlu Ədi nam Hatəmin qəbrin açdı ki, onun nəşin seldən salamat olan məkana nəql eləsin. Gördülər ki, Hatəmin tamam əzası tökülüb, vəlakin iki əlləri salamat qalıbdır. Xəlayiq bu hala təəccüb elədilər. Bir piri-gühənsali-cahandidə o camaatın arasında var idi. Dedi ki, təəccüb eləməyin ki, o, bu əllərlə çox möhtaclara ehsanlar edibdir.

---

[1]Hatəm - (Hatəmi-Tan) - İslamiyyətdən əvvəl yaşamış və öz səxavəti ilə məşhur olmuş bir ərəb varlısıdır.